# AY BÜLBÜLLƏR




Aman, aman ayrılıq, ay bülbüllər,
Olur yaman ayrılıq, ay bülbüllər,
Eşidəndə başımdan, ay bülbüllər,
Qalxır duman ayrılıq, ay bülbüllər.

Gülərəm gülən ola, ay bülbüllər,
Dərdimi bilən ola, ay bülbüllər,
Ağlamaqdan doymaram, ay bülbüllər.
Göz yaşım silən ola, ay bülbüllər.